# 26 SENTYABR - ÜMUMXALQ SƏSVERMƏSİ

*Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə ölkə Konstitusiyasında dəyişikliklər edilməsi məqsədi ilə 2016-cı il sentyabrın 26-da ümumxalq səsverməsi (referendum) keçiriləcək. Mərkəzi Seçki Komissiyası və aidiyyəti dövlət orqanları tərəfindən ümumxalq səsverməsinin azad, ədalətli və şəffaf keçirilməsi məqsədilə bütün zəruri addımlar atılır.*

*Azərbaycan Respublikası Seçki Məcəlləsinin 2.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının vətəndaşları referendumda ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli və şəxsi səsvermə yolu ilə iştirak edirlər. Vətəndaşların referendumda iştirakı azad və könüllüdür. Referendumda iştiraka görə məcbur etmək məqsədi ilə heç kəsin Azərbaycan Respublikası vətəndaşına təzyiq göstərmək hüququ yoxdur və heç kəs onun öz iradəsini azad ifadə etməsinə mane ola bilməz.*

***(Azərbaycan Respublikasının Seçki Məcəlləsindən çıxarış)***

### SƏSVERMƏ QAYDALARI

Seçki hüququnun prinsipləri və seçki sisteminin əsasları Azərbaycan Respublikası Konstitusiyası ilə tənzimlənir.

Azərbaycan Respublikası Milli Məclisi deputatlarının, Azərbaycan Respublikası Prezidentinin və bələdiyyə seçkilərinin, həmçinin ümumxalq səsvermənin - referendumun təşkili və keçirilməsi qaydaları Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə tənzimlənir.

### Seçki prosesinin mərhələləri

**Seçki prosesi aşağıdakı mərhələlərdən ibarətdir:**

*- seçkilərin təyin edilməsi;*
*- seçki dairələrinin və məntəqələrinin yaradılması;*
*- seçki orqanlarının, komissiyaların yaradılması;*
*- seçicilərin siyahıya alınması - seçicilərin qeydiyyatı;*
*- namizədlərin irəli sürülməsi;*
*- təşviqat kampaniyası;*
*- səsvermə, səslərin hesablanması və nəticələrin müəyyən edilməsi;*
*- səsvermənin yeni turu və ya təkrar seçkilərin keçirilməsi;*
*- seçki nəticələrinin son dəfə müəyyən edilməsi.*

### Səsvermə hüququnun həyata keçirildiyi yer və vaxt

Seçkilər günü səsvermə saat 08:00-dan 19:00-dək keçirilir. Səsvermə Məntəqə Seçki Komissiyasının səsvermə gününə azı 25 gün qalmış səsvermənin yeri və vaxtı haqqında kütləvi informasiya vasitələri və ya məlumat lövhələri vasitəsilə seçiciləri xəbərdar etdiyi müvafiq yerlərdə və vaxtda keçirilir.

### Səs vermək üçün seçici hansı sənədləri təqdim etməlidir?

Səs vermək üçün seçici aşağıdakı sənədlərdən birini Məntəqə Seçki Komissiyasının üzvünə təqdim etməlidir:
- ümumvətəndaş pasportu;
- Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsini;
- hərbi xidmətdə olan zabitlər - zabitin şəxsi vəsiqəsini;
- hərbi xidmətdə olan əsgərlər - hərbi bileti;
- qaçqın və məcburi köçkünlərin şəxsiyyət vəsiqəsi yoxdursa - qaçqın və məcburi köçkün olmasını təsdiq edən vəsiqə.



### Səsvermə hansı qaydada həyata keçirilir?

Vətəndaşların öz iradəsini sərbəst, şəxsi və gizli şəkildə ifadə etdiyi səsvermə seçki prosesinin həlledici mərhələlərindəndir.

**Səsvermə prosesi Məntəqə Seçki Komissiyası tərəfindən səsvermə qaydalarına əməl olunmasını təmin etməklə həyata keçirilir:**

*- məntəqə Seçki Komissiyasının məlumat üçün cavabdeh olan üzvü seçki məntəqəsinin girişində dayanaraq məntəqəyə gələn seçicilərin şəxsiyyətini təsdiqləyən müvafiq sənədlərini yoxlayır;*
*- seçiciyə şəxsiyyətini təsdiqləyən müvafiq sənədləri təqdim etmədikdə onun səsvermə hüququnun həyata keçirilməsinin qeyri-mümkünlüyünü izah edir;*
*- adı seçicilər siyahısında tapılmadıqda seçicinin adının seçicilər siyahısına salınması üçün seçiciyə məhkəməyə müraciət etməsini izah edir;*
*- ultrabənövşəyi lampa vasitəsilə seçicinin sol əlinin baş barmağının dırnaq və dərisinin gözlə görünməyən mürəkkəblə işarələnib-işarələnmədiyini yoxlayır;*
*- əgər seçicinin barmağı artıq mürəkkəblə işarələnmişsə, dərhal məntəqəni tərk etməsini tələb edir;*
*- seçicini səs vermək üçün ona bülleten və zərf verən Məntəqə Seçki Komissiyasının cavabdeh üzvünün yanına göndərir;*
*- seçicinin səs vermək hüququnu yoxlayan və bülleten verən Məntəqə Seçki Komissiyasının üzvü seçicinin adını seçicilər siyahısında tapır;*
*- təqdim olunmuş şəxsiyyəti təsdiqləyən sənədin seriya və nömrəsini seçicilər siyahısında seçicinin adı qarşısında qeyd edir;*
*- seçiciyə sol əlinin baş barmağının dırnaq və dərisinin bir hissəsinin gözlə görünməyən mürəkkəblə işarələnməsini təklif edir və işarələyir;*
*- seçiciyə möhürlənmiş zərf və seçki bülleteni verir;*
*- seçki bülletenini seçiciyə verərkən bülletenin nömrələnmiş yuxarı sol küncünü kəsir və özündə saxlayır;*
*- adı seçicilər siyahısında olan seçicidən siyahıda adının qarşısındakı "seçicinin seçki bülleteni alması haqqında" qrafasında imza etməsini xahiş edir;*
*- seçiciyə boş səsvermə kabinəsinə keçməsi;*
*- seçki bülletenində işarə qoyması;*
*- bülleteni qatlaması və onu Məntəqə Seçki Komissiyasının möhürü ilə möhürlənmiş zərfə qoyması və seçki qutusuna salması barədə məlumat verir.*

**Bu prosesdən imtina edən seçiciyə Məntəqə Seçki Komissiyasının nümayəndəsi səsvermə hüququndan istifadə edə bilməyəcəyini izah edir və belə olan halda səsvermə məntəqəsini tərk etməyi tələb edir.**

### Səsverməni seçicilər aşağıdakı qaydada həyata keçirir:

*- seçici seçicilər siyahısında yazıların düzgünlüyünü yoxlayır və bülleteni alarkən imza edir;*
*- hər seçici seçicilər siyahısında imza edərkən yalnız bir seçki bülleteni alır;*
*- seçici seçki bülleteninə işarəni səsvermə kabinəsində gizli şəkildə qoyur;*
*- başqasının əvəzindən səs verməyə icazə verilmir;*
*- seçici bülleten qoyulmuş zərfi seçki qutusuna salır;*
*- seçki bülletenini korlamış seçici korlanmış bülleteni qaytarmaqla ona yeni bülleten verilməsini xahiş edir;*
*- seçici səs verdikdən sonra dərhal seçki məntəqəsini tərk edir;*
*- seçki bülleteni almaq və ya doldurmaq üçün yardıma ehtiyacı olan seçici Məntəqə Seçki Komissiyası üzvləri və müşahidəçilər istisna olmaqla aktiv seçki hüququ olan digər şəxsə müraciət edə bilər.*

**Seçiciyə kömək etmiş şəxs seçici siyahısında seçicinin seçki bülletenini alması haqqında qrafadakı imzası qarşısında da imza atır. Yardıma ehtiyacı olan seçiciyə boş səsvermə kabinəsinə daxil olmasına kömək edir. Ehtiyac yaranarsa, kömək göstərən şəxs də seçici ilə birlikdə səsvermə kabinəsinə daxil ola bilər.**

### Seçici hansı halda səsvermə otağından kənarda səs verə bilər?

Seçki günü səhhətinə görə və ya digər üzrlü səbəbdən seçki məntəqəsinə gələ bilməyən vətəndaşların daşınar seçki qutusu vasitəsilə kənarda səs vermək hüququ vardır. Səsvermə otağından kənarda səsvermə aşağıdakı qaydada həyata keçirilir:

*- seçici seçki gününə ən azı 24 saat qalmış Məntəqə Seçki Komissiyasına yazılı və ya şifahi müraciət etməlidir;*
*- əgər seçici səsvermə otağından kənarda səs vermək üçün əvvəlcədən yazılı deyil, şifahi müraciət edibsə, ərizəni Məntəqə Seçki Komissiyası üzvünün iştirakı ilə yazmalıdır;*
*- ərizədə seçici möhürlənmiş seçki bülleteni və zərf almasını öz imzası ilə təsdiqləyir;*
*- ərizədə şəxsiyyət vəsiqəsini və ya onu əvəz edən seriya nömrəsi, seçici haqqında seçicilər siyahısındakı digər məlumatlar da qeyd olunur.*

*Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi «Yol hərəkəti haqqında» Azərbaycan Respublikası Qanununa uyğun olaraq, mexaniki avtonəqliyyat vasitələrinin, onların qoşqularının və yarımqoşqularının texniki vəziyyətinə nəzarət edilməsini, eləcə də mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, hüquqi və fiziki şəxslərlə qarşılıqlı fəaliyyət formalarını müəyyən edir.*

# AVTONƏQLİYYAT VASİTƏLƏRİNİN TƏHLÜKƏSİZ HƏRƏKƏTİNİN TƏMİN EDİLMƏSİNƏ NƏZARƏT





Yollarda avtonəqliyyat vasitələrinin təhlükəsiz hərəkətinin təmin edilməsinə nəzarət Daxili İşlər Nazirliyinin əməkdaşları tərəfindən stasionar və digər postlarda, eləcə də xüsusi avadanlığı olan avtonəqliyyat vasitələrində və ya texniki nəzarətetmə vasitələrinin tətbiqi ilə həyata keçirilir.

**Avtonəqliyyat vasitələrinin təhlükəsiz hərəkətinin təmin edilməsinə nəzarət aşağıdakı əsas istiqamətlərdə aparılır:**

*- texniki qulluq və cari təmirin müvafiq istehsalat-texniki bazasında yerinə yetirilməsi;*
*- texniki sazlığın müayinəsi;*
*- texniki qulluğun keçirilməsi;*
*- təmirlərə sifarişlərin vaxtında verilməsi və onların yerinə yetirilməsi;*
*- nasazlıq üzündən baş vermiş yol-nəqliyyat hadisələrinin qeydiyyatı;*
*- əvvəlki texniki baxışın nəticəsinə görə avtonəqliyyat vasitələrinin texniki vəziyyəti;*
*- texniki vəziyyəti müayinə etmək üçün istifadə olunan nəzarət-ölçü cihazlarının mövcudluğu, metroloji attestasiyadan keçmələri və onlardan istifadə qaydaları;*
*- istismara buraxılan avtonəqliyyat vasitələrinin ətraf mühitə zərərli təsirinin qəbul edilmiş normativlər həddində olmasının təmin edilməsi;*
*- sürücülərin reysqabağı, reysdən sonra və dövri tibbi müayinədən keçməsinin təşkili.*

### Avtomobil yollarında avtonəqliyyat vasitələrinin texniki vəziyyətinə nəzarət

Avtomobil yollarında avtonəqliyyat vasitələrinin texniki vəziyyətinə nəzarət «Yol hərəkəti haqqında» Qanunun tələblərinə riayət edilməklə aparılır. Belə ki, texniki vəziyyəti yol - nəqliyyat hadisəsi törədə biləcək ehtimalı aşkar müşahidə olunan, xarici görünüşü səliqəsiz və ya həmin Qanunun 1 nömrəli əlavəsində göstərilən tələblərə (tormoz sistemləri, sükan idarə mexanizmi, xarici işıq cihazları, qabaq şüşənin şüşə silgəcləri və şüşəyuyanları, təkərlər və şinlər, mühərrik, konstruksiyanın digər ünsürləri) uyğun gəlməyən avtonəqliyyat vasitələri saxlanılaraq, müvafiq qaydada müayinə olunur. Bu zaman avtonəqliyyat vasitəsinin texniki vəziyyətinə nəzarət mümkün qədər qısa müddət ərzində aparılmalı, müayinə zamanı digər hərəkət iştirakçılarına maneçilik törədilməməlidir.

Yollarda təcili yardım, yanğınsöndürmə, poçtdaşıyan, inkasator, texniki-qəza xidməti, daxili işlər və milli təhlükəsizlik orqanlarının əməliyyat avtomobilləri və hərbi avtomobillər, partlayıcı, yanğın təhlükəli, radioaktiv və başqa təhlükəli yük daşıyan nəqliyyat vasitələri, içərisində sərnişin olan avtobus və taksilər və s. texniki vəziyyətə görə müayinə edilmək məqsədi ilə saxlanılmır.

Texniki təmir stansiyalarında və texniki təmir sahələrində yol-nəqliyyat hadisələri nəticəsində zədələnmiş nəqliyyat vasitələrinin təmirə qəbul edilib Daxili İşlər Nazirliyinin verdiyi müvafiq arayış əsasında aparılması işlərinin vəziyyəti Daxili İşlər Nazirliyi tərəfindən öyrənilir, nöqsanlar barədə akt tərtib edilir və bu sahə üzrə nəzarət orqanına tədbir görülməsi üçün göndərilir.

**Avtonəqliyyat vasitələrinin texniki vəziyyətinə nəzarət edilməsinə, onları qeydiyyata alan orqanın əsas vəzifələrinə aşağıdakılar aiddir:**

*- avtonəqliyyat vasitələrinin texniki vəziyyətinə texniki baxışlararası müddətlərdə nəzarət etmək, dövri texniki baxışları həyata keçirmək, konstruksiyası və ya texniki vəziyyəti müəyyən olunmuş standartlara, habelə mühərrik, ban və şassi nömrələri qeydiyyat sənədlərində göstərilmiş nömrələrə uyğun gəlməyən avtonəqliyyat vasitələrinin istismarını qadağan etmək;*

*- avtonəqliyyat vasitələrinin konstruksiyasının hazırlanmasına və yenidən quraşdırılmasına, aqreqat, ban və ban hissələrinin dəyişdirilməsinə icazə vermək və yol hərəkəti təhlükəsizliyinin tələblərinə, dövlət standartlarına, normativ sənədlərə uyğun olmasına nəzarət etmək;*

*- mürəkkəb quruluşlu avadanlıqlaşdırma aparılan avtonəqliyyat vasitələrinin hərəkət təhlükəsizliyi ilə bağlı tələblərə uyğunluğu baxımından texniki layihə sənədlərinə müvafiq rəylər vermək, onların sınaqlarının keçirilməsində iştirak etmək, tələblərə cavab verməyən nümunələr barədə müvafiq orqanlara təqdimatlar göndərmək;*

*- avtonəqliyyat vasitələrinin zərərli tullantılarından ətraf mühitin qorunması sahəsində qüvvədə olan qaydaların, normativlərin, standartların tələblərinə riayət edilməsinə nəzarəti həyata keçirmək;*

*- təşkilati-hüquqi formasından asılı olmayaraq bütün müəssisələr, idarələr, təşkilatlar və fiziki şəxslər tərəfindən yol hərəkətinin təhlükəsizliyinin təmin olunması sahəsində qüvvədə olan qaydaların, normativlərin və standartların tələblərinə riayət edilməsinə müstəqil və ya müvafiq səlahiyyətli orqanlarla birlikdə nəzarət etmək.*

Yol hərəkətinin təhlükəsizliyinə nəzarətin təmin olunması məqsədi ilə sərnişin daşımalarının marşrutlarının sxemi və qısa xarakteristikası müvafiq səlahiyyətli orqanlar (lisenziya verən orqan və Dövlət Yol Polisi) ilə razılaşdırılmalıdır.

**Maddi-Texniki Təminat İdarəsinin Avtomobil və zirehli texnika şöbəsi**

***HƏRBİ XƏBƏRLƏR***

## "Kalaşnikov"un yeni snayper tüfəngləri

"Kalaşnikov" Konserni "Armiya-2016" beynəlxalq hərbi-texniki forumda "SVK" adlı yeni snayper tüfəngini ilk dəfə nümayişə çıxarıb.

Yeni tüfəngin konsepsiyası Rusiya ordusunun xüsusi bölmələrinin snayperlərinin arzuları nəzərə alınaraq hazırlanıb.

Yığcamlığı ilə seçilən "SVK" iki variantda 7.62X54 və 7.62X51 NATO patronlarına uyğun hazırlanıb.

Tüfəng qatlanan qundağa, ön hissədə açılıb yığılan ayaqlara malikdir. Lülə qutusunun üzərində optik nişangahlar bərkitmək üçün pikkatini tamasaları qurulub. Silah 5, 10 və ya 20 patron tutumlu daraqla komplektləşdirilir. 7.62x54R patronları ilə atış üçün hazırlanmış variantda SVK daraqları SVD tüfənginin darağı ilə əvəz oluna bilir.



"Kalaşnikov" Konserni forumda, həmçinin, özünün "VSV-338" modulyar yüksək dəqiqlik snayper tüfənginin təcrübi nümunəsini təqdim edib. Korpusu alüminium ərintisindən hazırlanmış tüfəng 338 Lapua Magnum patronlarla 1500 metrədək məsafədə atışlar aparmağa imkan verir. Silahın gövdəsinin və qundaq yatağının yuxarı hissəsində optik və mexaniki nişanın quraşdırılması üçün pikkatini tamasaları yerləşdirilib.

Tüfəngin qundağının hündürlüyü və uzunluğu tənzimlənəndir. Qundaq, eyni zamanda, yana doğru qatlanır.

## Allah rəhmət eləsin

67987 saylı hərbi hissənin şəxsi heyəti polkovnik Əhliman İlmazova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

99713 saylı hərbi hissənin şəxsi heyəti mayor Taleh Kərimova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: leytenant X.Tağıyeva

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: (012) 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

ƏSGƏR

№ 18 (484)
15 sentyabr 2016-cı il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN-in Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV XAÇMAZ VƏ QUSAR RAYONLARINDA YENİ OBYEKTLƏRİN AÇILIŞINDA İŞTİRAK EDİB

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də Xaçmaz və Qusar rayonlarına səfər edib. Dövlət başçısı səfər çərçivəsində əvvəlcə Xaçmaz rayonunda Heydər Əliyev Mərkəzinin yeni binasının açılışında iştirak edib. Ölkə başçısına məlumat verilib ki, binanın inşasına 2015-ci ilin fevralında başlanılıb və 2016-cı ilin mart ayında tikinti işləri başa çatdırılıb. Ümumi tikinti sahəsi 1100 kvadratmetr olan Mərkəzin binası iki mərtəbədən və müxtəlif təyinatlı bölmələrin fəaliyyət göstərdiyi otaqlardan ibarətdir. Prezident Mərkəzin binasını gəzərək yaradılan şəraitlə tanış olub və müvafiq tapşırıqlarını verib.***



### Xaçmazda nikah evinin yeni binası istifadəyə verilib

Respublika Prezidenti səfər çərçivəsində şəhərin mərkəzində yerləşən nikah evinin binasının açılışını edib. Məlumat verilib ki, bu bina 2005-ci ildə sosial təyinatlı obyekt kimi inşa edilib. Bina əsaslı təmir və yenidənqurma işlərindən sonra nikah evi kimi fəaliyyət göstərir. Binada regionun ən böyük təntənəli mərasim zalının olması nikah bağlayanlar üçün müxtəlif tədbirlərin təşkili ilə bağlı geniş imkanlar açır.

Prezident İlham Əliyev Xaçmazda Bayraq Meydanında və Bayraq Muzeyində yaradılan şəraitlə tanış olub, Xudat-Yalama-Zuxuloba avtomobil yolunun açılışını edib. Xudat-Yalama-Zuxuloba avtomobil yolu rayonun 18 yaşayış məntəqəsini birləşdirir. Prezident avtomobil yolunun açılışından sonra Xudat şəhərinin bir qrup sakini ilə görüşüb. Prezident görüşdə qeyd edib ki, bu bölgədə - Xaçmaz rayonunda, ümumiyyətlə, şimal bölgəsində işlər yaxşı gedir, abadlıq-quruculuq işləri aparılır. Bütün infrastruktur layihələri həll olunub. Prezident deyib ki, növbəti mərhələdə daha çox yerli istehsal, kənd təsərrüfatı, turizm inkişaf etməlidir. Turizmin inkişafı üçün əlavə imkanlar var: "Bu zona Azərbaycanın turizm mərkəzlərindən biridir, bəlkə də birincisidir. Gələcəkdə insanları işlə təmin etmək üçün, əlbəttə, həm dövlət, həm özəl sektor tərəfindən əlavə investisiyalar qoyulmalıdır ki, işlər daha da sürətlə getsin və inkişaf dayanıqlı olsun".

### Yalama Aqroparkının açılışı olub

Prezident "Yalama" Südlük-Maldarlıq üzrə Damazlıq Dövlət Kənd Təsərrüfatı İstehsalı Müəssisəsinin bazasında yaradılmış Yalama Aqroparkının açılışında da iştirak edib. İqtisadiyyat naziri Şahin Mustafayev aqroparkda görülən işlərlə bağlı dövlət başçısına ətraflı məlumat verib. Bildirilib ki, 523 hektar ərazidə salınan aqroparkın yaradılmasına birinci mərhələdə 20 milyon manat investisiya qoyulub. Layihənin ilkin mərhələsinə uyğun olaraq, 1000 başı sağmal olmaqla, 3000 başlıq cins iribuynuzlu heyvandarlıq kompleksi, müasir suvarma sistemi ilə 385 hektar sahədə iri taxılçılıq təsərrüfatı, istehsal gücü saatda 5 ton olan yem zavodu yaradılıb.

Zavodun davamlı və fasiləsiz xammala olan tələbatının ödənilməsi məqsədilə tutumu 4,5 min ton olan anbar və saatda 30 ton taxıl qurudan qurğu quraşdırılıb. İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən Quba-Xaçmaz iqtisadi rayonunda sahibkarlara ödənilən güzəştli kreditlər barədə də məlumat verilib. Bildirilib ki, indiyədək fond vasitəsilə Quba-Xaçmaz iqtisadi rayonu üzrə 2260-dək sahibkara 163,5 milyon manat, o cümlədən, yeni texnologiyalara əsaslanan 13 logistik mərkəz və 2 taxıl anbarı, 1 quşçuluq, 2 istixana, 7 intensiv bağçılıq və 4 üzümçülük təsərrüfatı, 3 meyvə-tərəvəz emalı, 2 çörək və 2 tara zavodu, eləcə də 7 digər istehsal və emal müəssisəsi olmaqla, ümumilikdə, 43 müəssisənin yaradılmasına 107 milyon manat, həmçinin, 1980-dək sahibkara 19 milyon manatdan çox kiçikhəcmli güzəştli kreditlər verilib. İqtisadi rayon üzrə verilmiş güzəştli kredit hesabına 11 mindən çox yeni iş yeri yaradılıb. Xaçmaz rayonu üzrə isə 790 sahibkara 50,6 milyon manat güzəştli kredit verilib və bu kreditlər hesabına 3300-dən çox yeni iş yeri açılıb. Dövlət başçısı Yalama Aqroparkında yaradılan şəraitlə tanış olub.

Dövlət başçısı aqroparkın ərazisindəki yem zavodunu işə salıb. Zavodda istehsal olunan qüvvəli yem, aqroparkın tələbatını ödəməklə yanaşı, regionda fəaliyyət göstərən fermer təsərrüfatlarına da satılacaq. Bununla yanaşı, aqroparkda müasir texnologiyanın tətbiq edildiyi, dəyəri 12 milyon manat, gündəlik emal gücü 100 ton olan süd zavodu, 60 hektar ərazidə intensiv bağçılıq (dəyəri 3 milyon manat) və Xaçmazın Muxtadır qəsəbəsində dövlət ehtiyat fondu torpaqlarından uzunmüddətli icarəyə götürüləcək 957 hektar sahədə müasir suvarma sisteminə malik olan iri taxılçılıq təsərrüfatları (dəyəri 5 milyon manat) yaradılacaq. Süd emalı zavodunda kərə yağı, quru süd və pendir istehsal olunacaq. Aqroparkda ikinci mərhələ üzrə həyata keçiriləcək layihələrə, ümumilikdə, 20 milyon manat investisiya qoyulması nəzərdə tutulur. İkinci mərhələdə İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun maliyyə dəstəyindən də istifadə ediləcək.

Aqroparkla tanışlıqdan sonra Prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

### Qusarda avtomobil yolu və tam orta məktəb binası istifadəyə verilib

Azərbaycan Prezidenti Xaçmaza səfərini başa çatdıraraq Qusara gedib. Dövlət başçısı Ulu Öndər Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib. Prezident əsaslı şəkildə yenidən qurulan Qusar-İmamqulukənd-Quxuroba avtomobil yolunun açılışında iştirak edib. Bu yolun tikintisi ilə 11 yaşayış məntəqəsinin 12 min nəfər əhalisinin rayon mərkəzinə və Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yoluna rahat və maneəsiz şəkildə gediş-gəlişi təmin olunub. Beləliklə, bu yolun istifadəyə verilməsi ilə nəinki Qusarın, eləcə də regionun iqtisadi potensialı daha da artır. Prezident İlham Əliyev Qusar rayonunun Hil kəndində professor Kərim Kərimov adına tam orta məktəbin yeni binasının açılışını da edib. Təhsil naziri Mikayıl Cabbarov görülən işlər barədə dövlət başçısına məlumat verib.

### Qusarın içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi başa çatıb

Qusar rayonunda içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması işləri ilə yanaşı, dövlət büdcəsi vəsaiti hesabına Qusar-Quba kanalizasiya kollektorunun tikintisi də tamamlanıb.

"Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov dövlət başçısına layihə barədə məlumat verib. Qeyd olunub ki, layihə çərçivəsində Qusar Sukanal İdarəsi üçün 472 kvadratmetr sahəsi olan yeni inzibati bina tikilib. Binada xidməti otaqlar, iclas zalı, zəng mərkəzi, anbar, informasiya texnologiyaları otağı, digər xidməti və yardımçı otaqlar yaradılıb. Bildirilib ki, bu layihə Azərbaycan hökuməti ilə Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin birgə maliyyələşdirdiyi "Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi" çərçivəsində həyata keçirilib. Layihə 2030-cu ilə perspektiv inkişaf nəzərə alınmaqla Qusar şəhərində 19 min 600 nəfərin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Eyni zamanda, layihə çərçivəsində Qusar rayonunun 7 və Quba rayonunun 3 kəndinə içməli suyun verilməsi nəzərdə tutulub. Ümumilikdə, layihədən bu kəndlərin 12 min sakini faydalanacaq. İçməli su şəbəkəsi ilə paralel olaraq, şəhərin kanalizasiya sistemləri də müasir standartlar səviyyəsində yenidən qurulub. Dövlət başçısına məlumat verilib ki, Azərbaycan hökuməti və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin birgə maliyyələşdirdiyi "Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi" çərçivəsində ölkəmizin 5 şəhərində - Qusar, Xaçmaz, Xızı, Qobustan və Naftalanda içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması nəzərdə tutulub. Artıq Naftalan şəhərində su və kanalizasiya şəbəkələrinin tikintisi tam başa çatıb, hazırda tullantı sutəmizləyici qurğunun inşasına hazırlıq işləri görülür. Qobustan, Xaçmaz və Xızı şəhərlərində isə içməli su və kanalizasiya sistemlərinin inşası təsdiqlənmiş qrafikə uyğun davam etdirilir. Sonra Respublika Prezidenti layihənin işə salınmasını bildirən düyməni basıb. Dövlət başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

**Mətbuat xidməti**

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

***Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov avqustun 31-də Türkiyə Respublikasında işgüzar səfərdə olub.***



Əvvəlcə nazir Ankarada Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün Anıtqəbirdəki mavzoleyinə gedərək, onun xatirəsini ehtiramla yad edib və məzarı önünə əklil qoyub. Daha sonra Türkiyənin Daxili İşlər Naziri Əfqan Ala ilə cənab Ramil Usubovun görüşü keçirilib. İki ölkə arasında qardaşlıq münasibətlərinin yüksək səviyyədə olduğunu bildirən nazir Əfqan Ala 15 iyul dövlət çevrilişinə cəhd zamanı Azərbaycan xalqı və dövlət başçısı cənab İlham Əliyev tərəfindən Türkiyənin qanuni hakimiyyətinə hərtərəfli dəstək verildiyini qeyd edib.

Azərbaycanın Daxili İşlər Naziri ölkələrimiz arasında əlaqələrin bütün istiqamətlərdə uğurla inkişaf etdiyini diqqətə çatdıraraq vurğulayıb ki, yaşadığımız regionda böhran və münaqişələrin, risk və təhdidlərin mövcudluğuna baxmayaraq, biz hər zaman sabitliyi qorumaq və möhkəmləndirmək, beynəlxalq terrorçuluğa qarşı səylərimizi daha sıx birləşdirmək əzmindəyik. İyul ayının 15-də baş vermiş dövlət çevrilişinə cəhd zamanı da Türkiyə bu çağırışların qarşısını almağa qadir və qərarlı olduğunu bir daha təsdiqlədi. Xaricdən və daxildən olan birləşmiş qüvvələrə xalq və dövlət öz qüdrətini, əzmini və qətiyyətini göstərdi. Türkiyə demokratiyasına yönəlmiş təhlükənin qarşısı cənab Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi, xalqın ona olan sonsuz inamı ilə qətiyyətlə alındı.

Daxili İşlər Naziri Ramil Usubov dövlət çevrilişinə cəhd zamanı şəhidlik zirvəsinə ucalanlara bir daha Allahdan rəhmət diləyib, yaxınlarına başsağlığı verib, bütün yaralılara şəfa arzulayıb. O qeyd edib ki, bu hadisələr Türkiyəyə qəlbən bağlı olan Azərbaycanda həyəcanla izlənildi, yaşanan proseslərdən Azərbaycan xalqı və dövlətimizin başçısı dərin narahatlıq keçirdi. Hadisələri qətiyyətlə pisləyən və qəbuledilməzliyini söyləyən Prezidentimiz cənab İlham Əliyev baş verənləri Türkiyə xalqının milli maraqlarına, ölkənin demokratik əsaslarına və hüququn aliliyinə qəsd kimi dəyərləndirdi.



Azərbaycanın Türkiyə dövlətinin və xalqının yanında olduğunu, Türkiyə vətəndaşlarının demokratik yolla seçdiyi hakimiyyəti hərtərəfli dəstəklədiyini bəyan etdi və bütün bunlarla bağlı ölkəmizin müvafiq dövlət qurumlarına lazımi tapşırıqlar verdi.

15 iyul hadisələrindən dərhal sonra «Hizmət hərəkatı»na bilavasitə bağlı olan «Qafqaz Universiteti»nin fəaliyyətinə və orada çalışan 50-yə yaxın müəllimlə bağlanmış əmək müqaviləsinə xitam verildiyi, eyni səbəbdən «Zaman-Azərbaycan» qəzetinin və onun veb-saytının fəaliyyətinin, Fətullah Güləndən müsahibə almış ANS televiziyasının, radiosunun və veb-saytının da yayımının dayandırıldığı diqqətə çatdırılıb.

Nazir qeyd edib ki, müxtəlif sahələrdə və strukturlarda fəaliyyət göstərən «Hizmət hərəkatı»na mənsub şəxslərin aşkarlanması istiqamətində müvafiq dövlət qurumları lazımi tədbirlər görür. Azərbaycanın xüsusi xidmət orqanları tərəfindən, mobil rabitə xidməti göstərən şirkətlərdə yüksək vəzifə tutan bəzi şəxslər - mobil operatorların abunəçilərinə dair fərdi, o cümlədən, qapalı məlumatlardan qanunsuz olaraq «Hizmət hərəkatı»nın xeyrinə istifadə etməkdə şübhəli bilinərək həbs olunublar.

Bu hərəkatın «fətullahçılığı» təbliğ edən, eləcə də sosial, dini nifrət və düşmənçiliyin salınmasına yönələn qanunazidd hərəkətlərinin araşdırılması, qarşısının alınması, bu hərəkatın maliyyə mənbələrinin müəyyən edilməsi məqsədilə, Azərbaycanın Baş Prokurorluğu tərəfindən cari ilin avqust ayının 12-də cinayət işi başlanılıb və istintaq aparılır.

Həmin cinayət işi üzrə Baş Prokurorluğun, Daxili İşlər Nazirliyinin və Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu yaradılıb və müvafiq tədbirlər davam etdirilir.

Cənab Ramil Usubov onu da qeyd edib ki, ikitərəfli əməkdaşlığın formatı böyük potensiala malikdir. Bu gün iki ölkənin dövlət başçıları arasında olan səmimi dostluq və qardaşlıq münasibətləri bütün icra qurumlarının, o cümlədən daxili işlər nazirliklərinin qarşılıqlı fəaliyyətinə çox yaxşı zəmin yaradıb.

Dostluq və mehribanlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

## XX əsrin ən böyük enerji layihəsi:

# “ƏSRİN MÜQAVİLƏSİ”

**Əsrin müqaviləsi ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firavan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır və inanıram ki, XXI əsr müstəqil Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaqdır.**

*Heydər Əliyev, Ümummilli Lider*

**1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında Xəzərin Azərbaycan sektorundakı “Azəri”, “Çıraq”, “Günəşli” yataqlarının birgə işlənməsi haqqında müqavilə imzalandı. Bütün çətinliklərə baxmayaraq, Azərbaycanın milli mənafeyinə uyğun hazırlanmış müqavilə öz müstəsna əhəmiyyətinə görə “Əsrin müqaviləsi” adını aldı.**



Təxminən 400 səhifə həcmində və 4 dildə öz əksini tapmış “Əsrin müqaviləsi”ndə dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkəti (Amoko, BP, MakDermott, Yunokal, ARDNŞ, LUKoyl, Statoyl, Ekson, Türkiyə Petrolları, Penzoyl, İtoçu, Remko, Delta) iştirak etmişdir.

“Əsrin müqaviləsi” Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edildi və 12 dekabr 1994-cü ildə qüvvəyə mindi. İlk günlərdən başlayaraq Azərbaycan Beynəlxalq Əməliyyat şirkəti yaradıldı və təsdiq olunmuş vahid proqram üzrə ARDNŞ ilə birgə işlərə başlandı. Bu saziş sonradan dünyanın 19 ölkəsinin 41 neft şirkəti ilə 30-dək sazişin imzalanması üçün yol açdı.

“Əsrin müqaviləsi”nin həyata keçirilməsinə başlanan vaxtdan Azərbaycan iqtisadiyyatında dönüş yarandı və böyük işlərə başlandı. Birinci növbədə 1995-ci ildə ilkin neft hasilatı layihəsi çərçivəsində “Çıraq-1” özülü Qərb standartlarına uyğun olaraq bərpa olundu və böyük maillikli quyuların qazılması məqsədilə bu özülün üst modulu modernizə edilərək yeni qazma avadanlıqları ilə təchiz olundu. 1997-ci ildə “Çıraq” yatağından neft hasilatına başlandı.

1999-cu ilin dekabrında Azərbaycanın “mənfəət nefti” ilə doldurulmuş ilk tankeri dünya bazarlarına çıxarıldı.

Şimal istiqamətində inşa olunmuş Bakı-Novorossiysk kəməri ilk dəfə neft Novorossiysk limanına 25 oktyabr 1997-ci ildə nəql edildi.

Qərb istiqamətindəki Bakı-Supsa boru kəməri isə 17 aprel 1999-cu ildə işə salındı.

Xəzərin böyük dərinliklərində yerləşən sahələrdə dərin kəşfiyyat quyularının qazılması məqsədilə “Dədə Qorqud” (keçmiş “Kaspmorneft”) və “İstiqlal” yarımdalma üzən qazma qurğusu təmir və modernizə edilmişdir.

Modernizə olunmuş qazma qurğularının köməyi ilə “Azəri-Çıraq-Günəşli” yataqlarında birgə aparılan işlər nəticəsində 6 kəşfiyyat quyusu qazıldı və neft ehtiyatları 30%-dən çox artırıldı.

1999-cu ilin noyabrında Türkiyənin İstanbul şəhərində keçirilmiş ATƏT-in Sammitində ABŞ, Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkmənistan prezidentləri tərəfindən Bakı-Tbilisi-Ceyhan (BTC) “Əsas İxrac Neft Kəməri”nin çəkilişi haqqında dövlətlərarası müqavilə imzalanmışdır. 2002-ci il sentyabrın 18-də Bakıda Səngəçal terminalında Ümummilli Liderimiz Heydər Əliyevin, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan ixrac neft kəmərinin təməl daşı qoyulmuş və tikintisinə başlanmışdır. BTC-nin Azərbaycan hissəsinin Gürcüstan hissəsi ilə birləşdirilməsi 2004-cü ilin oktyabrında baş tutdu. 2006-cı il iyulun 13-də isə Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirildi.

Ümummilli Lider Heydər Əliyevin gərgin əməyi nəticəsində reallaşan “Əsrin müqaviləsi” labüd olaraq ölkədə sosial-iqtisadi durumu dirçəltməklə yanaşı, Azərbaycanın dünya dövlətləri ilə, o cümlədən, dünya xalqları ilə əlaqələrinin yenidən qurulmasına təkan verdi.

**“Əsgər”**

# HƏRBİ HİSSƏ ÜZƏRİNƏ DÜŞƏN VƏZİFƏLƏRİN ÖHDƏSİNDƏN LAYİQİNCƏ GƏLİR

***17071 saylı hərbi hissə yerləşdiyi regionda ictimai təhlükəsizliyin sadiq keşikçisi kimi daxili sabitliyin qorunub saxlanılmasında, hüquqazidd əməllərin qarşısının alınmasında qarşıya qoyulmuş tapşırıqları digər hüquq-mühafizə orqanları ilə birlikdə müvəffəqiyyətlə yerinə yetirir.***



Hərbi hissədə xidməti ezamiyyətdə olarkən hissə komandiri polkovnik-leytenant Ramiq Salayevlə söhbətimiz məhz bu istiqamətdə oldu. O, bütün tapşırıqların tam və keyfiyyətlə yerinə yetirilməsi məqsədilə döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılması üçün bir sıra tədbirlərin həyata keçirildiyini bildirdi. Qeyd etdi ki, xüsusən hərbi qulluqçuların fiziki və atəş hazırlıqları diqqət mərkəzində saxlanılır. Şəxsi heyət daha çox ictimai təhlükəsizliyin və ictimai qaydanın qorunması üzrə “Xidmətin təşkili və aparılması” mövzusunda məşğələlərə cəlb olunur. Bu da təsadüfi deyil. Yeri gəlmişkən qeyd edim ki, hərbi hissənin şəxsi heyəti sentyabrın 16-da Qəbələ rayonunda keçiriləcək gənclər arasında atıcılıq üzrə Dünya kubokunun mərhələ yarışları zamanı hüquq-mühafizə orqanları ilə birlikdə xidmətə cəlb olunacaq.

Qarşıya qoyulmuş tapşırıqların əhəmiyyətini nəzərə alan hissə komandiri məşğələlərə şəxsən nəzarət etdiyini söylədi.

Şəxsi heyətin mənəvi-psixoloji durumunun artırılması istiqamətində həyata keçirilən tədbirlər barədə isə hissə komandirinin tərbiyə işləri üzrə müavini mayor Xalid Hüseynov məlumat verdi. O, görülən tədbirlər nəticəsində şəxsi heyətin döyüş ruhunun günü-gündən artdığının müşahidə olunduğunu nəzərə çatdırdı.

### Xidmət Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin tələbləri əsasında aparılır

“Əsgər” qəzetinin növbəti sayı üçün material toplamaq məqsədilə ilk olaraq komendant bölüyündə oldum. Bölük komandiri baş leytenant Sərxan Qafarov bildirdi ki, xidmət “Azərbaycan Respublikası Silahlı Qüvvələri Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsi”nin tələbləri əsasında aparılır. O, həvalə olunmuş hərbi obyektlərin etibarlı mühafizəsinin təşkili üçün hər bir hərbi qulluqçunun nizamnamənin tələblərinə ciddi əməl etdiyini dedi. Bundan başqa, postda xidmət aparan saatdarların ayıq-sayıqlıq, dözümlülük, çeviklik və cəsarətlilik kimi keyfiyyətlərə malik olduqlarını nəzərə çatdırdı. Ümumiyyətlə, şəxsi heyətin üzərilərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəldiyini deyən baş leytenant S.Qafarov qarovul rəisi kimi leytenant Seymur Göyüşovun fəaliyyətini müsbət qiymətləndirdi.





Leytenant S.Göyüşov isə öz növbəsində xidmətə cəlb olunan hərbi qulluqçuların fiziki və atəş hazırlığının yüksək olması ilə yanaşı, onların bilik və bacarıqlarının, eyni zamanda hərbi savadlarının qənaətbəxş olduğunu söylədi. O, oyaq növbənin şəxsi heyətinin asudə vaxtlarının səmərəli keçirilməsinə, stolüstü oyunların təşkilinə, müxtəlif növ ədəbiyyatların mütaliə olunmasına ciddi nəzarət edir.

Qarovul rəisinin köməkçiləri çavuş Hüseyn Quliyev, əsgər Yaşar Hüseynov, əsgərlər Qurban Qurbanlı, Pərviz Rəcəbəliyev və Röyal Nağıyev xidmətdə əzmkarlıq nümayiş etdirən hərbi qulluqçular kimi xarakterizə edildilər.

### Praktiki təlimlər döyüş hazırlığının yüksəldilməsinə və peşə vərdişlərinin təkmilləşdirilməsinə yönəlib

Regionda sabitliyin qorunub saxlanılmasında, silahlı cinayətkarların axtarılması, tutulması, zərərsizləşdirilməsi və təhlükəsizliyin təmin olunmasında hərbi hissənin xüsusi təyinatlı dəstəsinin fəaliyyəti böyükdür. Dəstə komandirinin müavini baş leytenant Hüseyn Ələsgərov mövcud relyefi nəzərə alaraq, şəxsi heyətin daha çox praktiki təlimlərə cəlb olunduğunu bildirdi. Bu, həm peşə vərdişlərinin artırılmasında, həm də ərazinin tanınmasında əhəmiyyət kəsb edir. Əlavə etdi ki, hərbi qulluqçular hər ayın sonunda ikigünlük reyd fəaliyyətinə cəlb olunurlar. Təlim zamanı “yürüş”,



“təyin olunmuş yerdə basqın fəaliyyəti icra etmək”, geri dönüş zamanı şəxsi heyətə təlim məqsədilə “pusqu atmaq”, “pusquya qarşı qoyma” kimi mövzularda məşğələlər keçirilir. Meşəlik, dağlıq, kənd ərazilərində axtarış fəaliyyətinin icra olunması və gecə təlimləri də keçirilən məşğələlərdəndir. Baş leytenant H.Ələsgərovun sözlərinə görə, keçirilən bütün təlim və məşğələlər yalnız bir məqsədə - dəstənin döyüş hazırlığının artırılmasına xidmət edir. Nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçulardan qrup komandiri leytenant Aqil Abdullayevin, yarımqrup komandiri baş çavuş Samid Qalamovun, istehkamçı baş çavuş İlqar Salmanlının və pulemyotçu çavuş Azər Ələkbərovun adlarını çəkə bilərik.

### Şəxsi heyət tapşırıqların icrasına məsuliyyətlə yanaşır

Hərbi hissənin qabaqcıl bölüklərindən biri də xüsusi vasitələrin tətbiqi dəstəsidir. Dəstənin şəxsi heyəti funksional vəzifələrindən irəli gələn tapşırıqların icrasına məsuliyyətlə yanaşır, təlim və məşğələlərdə fəallıq nümayiş etdirir.

Dəstə komandiri vəzifələrini icra edən mayor İsmayıl Fərmanov bildirdi ki, regionda ictimai təhlükəsizliyin təmin olunmasında, habelə kütləvi tədbirlərin keçirilməsi zamanı ictimai qaydaların qorunub saxlanılmasında şəxsi heyət üzərinə düşən vəzifələri uğurla həyata keçirir. Hərbi qulluqçula-



rın bu sahədə kifayət qədər təcrübəsinin olduğunu deyən dəstə komandiri təlim məşğələlərində yeni gəlmiş hərbi qulluqçulara xüsusi diqqət yetirildiyini sözlərinə əlavə etdi. Qeyd etdi ki, təlimlər zamanı şəxsi heyətə onlara təhkim olunmuş xüsusi vasitələrin taktiki-texniki xüsusiyyətləri dərindən öyrədilir, müxtəlif mövzularda (məsələn, “Sıx ərazidə qrupun fəaliyyəti” və s.) məşğələlər keçirilir. Dəstə komandiri müvafiq plana uyğun olaraq keçirilən təlimlərin hərbi qulluqçuların hərtərəfli hazırlığına zəmin yaratdığını vurğuladı.

Bölmə komandirinin müavini leytenant Ruslan Sevdiməliyev, qrup komandiri baş gizir Anar Hüseynov, atıcılar kiçik çavuş Fuad Quliyev və əsgər Elmar Məmmədli dəstənin fəallıqları ilə seçilən hərbi qulluqçulardandır.

**baş leytenant T.Əlizadə**

# ALİ HƏRBİ MƏKTƏBİN KURSANTLARININ HƏRBİ ANDİÇMƏ MƏRASİMİ KEÇİRİLİB

***Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının bu münasibətlə ünvanladığı təbrik məktubu kursantlara çatdırılıb***





Daxili Qoşunların Ali Hərbi Məktəbinə bu il qəbul olan kursantların təntənəli andiçmə mərasimi keçirilib. Mərasimdə Daxili Qoşunlar Komandanının müavini - Şəxsi heyət üzrə İdarənin rəisi general-mayor Vidadi Əliyev, Türkiyə Respublikasının Qoşunlarda xidməti ezamiyyətdə olan zabitləri, Veteranlar Şurasının üzvləri, kursant valideynləri və ictimaiyyət nümayəndələri iştirak edib.

Tədbir Ali Hərbi Məktəbin Döyüş Bayrağının sıra meydanına gətirilməsi ilə başladı.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçularımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Daxili Qoşunların Nümunəvi-göstərici Hərbi Orkestrinin müşayiətilə Dövlət himni ifa edildi.

Sonra Ali Hərbi Məktəbin rəisi general-mayor İ.Məmmədov çıxış edərək hərbi andın mənasını, öz xalqına, Azərbaycan Respublikasına və Azərbaycan hökumətinə sədaqətlə and içən kursantların üzərinə düşən şərəfli və məsul vəzifələri, eləcə də Azərbaycan Respublikası Konstitusiyasının müvafiq maddələrinin tələblərini xatırlatdı.

Daha sonra Ali Hərbi Məktəbə yeni qəbul olmuş kursantlar hərbi and içərək, üzərilərinə düşən şərəfli və məsul vəzifələrin, Silahlı Qüvvələrin Nizamnamələrinin, eləcə də Azərbaycan Respublikası Konstitusiyasının müvafiq maddələrinin tələblərinə əməl edəcəklərinə söz verdilər.

Kursantlar adından çıxış edən kursant Bayram Məmmədzadə müqəddəs bayrağa əl basaraq and içdiklərini, zabit adına hər zaman layiq olmağa çalışacaqlarına və bu yolda, lazım gələrsə, canlarını fəda edəcəklərinə hər zaman hazır olacaqlarını ifadə etdi.

Valideynlər adından çıxış edən Azad Atayev isə bütün valideynləri təbrik edərək, onları bu müqəddəs və şərəfli yolda hər bir kursanta dəstək olmağa çağırdı. Kursantlarla yanaşı, hər bir valideynin Vətənin əsgəri kimi Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin verdiyi bütün əmr və göstərişləri layiqincə yerinə yetirməyə hazır olduqlarını nəzərə çatdırdı.

Daxili Qoşunların Veteranlar Şurasının üzvü, döyüşçü-şair Elxan Xəzər kursantları təbrik edərək vətənpərvərlik hissi aşılayan şeirlərini söylədi.

Sonra çıxış üçün söz general-mayor V.Əliyevə verildi. O, hərbi andiçmə günü münasibəti ilə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının kursantlara ünvanladığı təbriki elan etdi. Təbrikdə kursantların Daxili Qoşunların bütün şəxsi heyəti kimi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan hər bir tapşırığı layiqincə yerinə yetirəcəkləri, Daxili Qoşunların sıralarının daha da möhkəmlənməsi və qüdrətlənməsi üçün səy göstərəcəkləri qeyd edilmişdir. Əminliklə bildirilirdi ki, sıralarımıza daxil olan gənclərimiz xidməti-döyüş tapşırıqlarını daha keyfiyyətlə yerinə yetirəcək, dövlət və dövlətçiliyimizin daha da gücləndirilməsi naminə öz fədakar xidmətlərini əsirgəməyəcək, sədaqət hissi ilə döyünən qəlbləri daima Vətən eşqi ilə alovlanacaqdır.

Tədbir şəxsi heyətin tribuna önündən təntənəli keçidi ilə başa çatdı.

**Mətbuat xidməti**



# DAXİLİ QOŞUNLARIN HƏRBİ HİSSƏLƏRİNDƏ MÜQƏDDƏS QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ TƏDBİRLƏR KEÇİRİLİB

***DAXİLİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ-DAXİLİ QOŞUNLARIN KOMANDANI QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ ŞƏXSİ HEYƏTİ TƏBRİK EDİB***

**Qurban bayramı dünya müsəlmanlarının ən müqəddəs və əziz bayramlarından biridir. Çoxəsrlik tarixi olan bu bayram müqəddəs və xeyirxah arzuların, insanlar arasında birliyin, qardaşlığın, cəmiyyətin mənəvi paklığının rəmzidir.**

İslam dininin mənəvi dəyərlərini özündə yaşadan, insanları daim sülhə, dözümlülüyə, köməksiz insanlara əl tutmağa səsləyən bu bayram hər il Daxili Qoşunlarda da yüksək coşqu ilə qeyd edilir.

Sentyabrın 12-də - Qurban bayramı günü qoşunların bütün hərbi hissələrində yerli icra hakimiyyəti orqanlarının nümayəndələrinin iştirakı ilə keçirilən tədbirlərdə sözügedən müqəddəs dini mərasimin özəllikləri, mahiyyəti barədə geniş məlumat verildikdən sonra qurbanlıq heyvanlar kəsilib.

Qurbankəsmə mərasimi başa çatdıqdan sonra şəxsi heyəti təbrik üçün söz hərbi hissə komandirlərinə verilib. Onlar çıxış edərək Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının təbrik məktubunu tədbir iştirakçılarının nəzərinə çatdırıblar. Təbrikdə bütün hərbi qulluqçulara səmimi arzularını çatdıran cənab Komandan cəmiyyətimizdə humanizm və qardaşlıq duyğularını gücləndirən Qurban bayramında dövlətimizin tərəqqisi, xalqımızın rifahı naminə dualar edildiyini, şəhidlərimizin xatirəsinin ehtiramla yad olunduğunu bildirib, bütün şəxsi heyətə müstəqilliyimizin və dövlətçiliyimizin qorunması naminə şərəfli xidmətlərində uğurlar diləyərək, kəsilən qurbanların Allah tərəfindən qəbul olunmasını arzulayıb.

Kəsilmiş qurbanlardan dadlı təamlar bişirilərək iki gün ərzində bayram naharlarında şəxsi heyətə verilib.

Eyni zamanda, bayram münasibətilə hərbi hissələrdə yerli icra hakimiyyəti orqanları ilə birgə konsertlər təşkil olunub. Konsert proqramlarında Azərbaycan incəsənətinin tanınmış simaları öz rəngarəng musiqi nömrələri ilə şəxsi heyətin zövqünü oxşamağı bacarıblar.

Məlumat üçün bildirək ki, İslam dünyasının ən müqəddəs bayramlarından sayılan Qurban bayramı bütün müsəlman ölkələrində təmtəraqla qeyd olunur. Azərbaycan müstəqillik əldə etdikdən sonra Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanuna əsasən Qurban bayramı ölkəmizdə də dövlət səviyyəsində bayram edilir.

**Mətbuat xidməti**

# DÖYÜŞ TAPŞIRIQLARI UĞURLA YERİNƏ YETİRİLİR

***Daxili Qoşunların 99713 saylı hərbi hissəsinin nümunəvi bölmələrindən biri də kapitan Namir Qurbanovun rəhbərlik etdiyi bölmədir.***

***Bölmənin şəxsi heyəti qarşıya qoyulan tapşırıqları keyfiyyətlə icra edir, yüksək döyüş hazırlığının qorunub saxlanılmasında fəallıq nümayiş etdirir.***

Hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunan hərbi qulluqçumuz bölmədə döyüş təliminin düzgün və keyfiyyətlə aparılmasına, hərbi intizamın, daxili qayda-qanunun qorunub saxlanılmasına ciddi nəzarət edir. Eyni zamanda, tabeçiliyində olan hər bir hərbi qulluqçuya şəxsi keyfiyyətlərinə görə fərdi yanaşmağı bacarır, ehtiyaclarını dərindən öyrənir, diqqət və qayğısını əsirgəmir. Onların əsl hərbçi kimi formalaşmasında üzərinə düşən məsuliyyəti dərindən dərk edərək, bu istiqamətdə səylə çalışır.

O bildirir ki, hərbi hissə komandanlığı tərəfindən qoyulmuş əsas tələb nəzəri və praktiki məşğələlərin vaxtında və keyfiyyətlə keçirilməsi, hərbi qulluqçuların hərtərəfli hazırlığının ciddi nəzarətdə saxlanılmasıdır. Bu baxımdan taktiki hazırlıq, ssenarili təlim, gecə təlimləri hərbi qulluqçuların peşə vərdişlərinin artırılmasında mühüm əhəmiyyət kəsb edir. Fiziki hazırlıq və atəş hazırlığına da önəm verilir. Onun sözlərinə görə, qrupun şəxsi heyəti məşğələlərdə fəal iştirak edir.

Kapitan N.Qurbanov onu da vurğuladı ki, xidmətin uğurlu təşkilini, yüksək döyüş hazırlığını şərtləndirən ən mühüm amillərdən biri də hərbi qulluqçuların döyüş ruhunun artırılmasıdır. Bunun üçün onların mənəvi-psixoloji durumunun qənaətbəxş olması vacibdir. Kiçik komandirlərin, bölmədə və qrupda olan təbliğatçıların rolunu da qeyd etmək yerinə düşər. Belə ki, onlar bu fəaliyyətdə əllərindən gələni əsirgəmirlər.

O, qrup komandirlərindən gizir Pənah Quliyevin, yarımqrup komandirləri baş çavuş Şəmistan Məhərrəmovun və baş çavuş Təyyar Mehdiyevin, həmçinin nümunəvi hərbi qulluqçulardan əsgərlər Nurlan Qədirovun, Teymur Yəhyayevin, Səbuhi Həşimovun adlarını qeyd etdi.

Beləliklə, görülən kompleks işlərin nəticəsidir ki, bölmənin şəxsi heyəti qəflətən qarşıya çıxan tapşırıqların keyfiyyətlə icra olunmasına daima hazırdır.

**leytenant N.Ağayeva**







## Şəhidlərimiz

# YÜKSƏK DÖYÜŞ RUHU, VƏTƏNƏ SONSUZ MƏHƏBBƏT, DÜŞMƏNƏ NİFRƏT HİSSİ...

***Əsrlər boyu Vətənin qeyrətli oğul və qızları sözün əsl mənasında qəhrəmanlıq nümunələri göstərmişlər. Onların şücaəti, qorxmazlığı bugünki gənc nəslin vətənpərvər ruhda tərbiyə olunmasında böyük əhəmiyyət kəsb edir.***

***Ehtiramla yad edilən hər bir şəhid məzarı gənclərimizin and yerinə çevrilib. Şəhidlik zirvəsinə yüksəlmiş Vətən oğulları bir daha sübut etdilər ki, nə olursa-olsun, düşmən qarşısından geri çəkilmək olmaz!***



Əliyev Ceyhun Şıxəli oğlu

Daxili Qoşunların sıravi hərbi qulluqçusu Ceyhun Şıxəli oğlu Əliyev də Azərbaycanın ərazi bütövlüyü uğrunda canını qurban verən qəhrəman Vətən övladlarından biridir. Yaşının az olmasına baxmayaraq, onun döyüşlərdə göstərdiyi canfəşanlıq və qorxmazlığından silahdaşları bu gün də ağızdolusu danışırlar.

Sıravi C.Əliyev 1974-cü ildə Ağsu rayonunun Padar kəndində anadan olub. 1982-ci ildə Ceyhun Padar kənd orta məktəbinin 1-ci sinfinə daxil olub. O zaman “böyük qardaş” adlandırdığımız SSRİ-nin hələ qüdrətli çağlarından biri idi... Sovet Azərbaycanının “xoşbəxt vətəndaşı” olan Ceyhun həmyaşıdları kimi orta məktəbin yuxarı siniflərinə doğru “oktyabryat”, “pioner” olaraq pillə-pillə irəliləyirdi. Kim bilir, hansı istək və arzularla...

**1991-ci il.** İmperiya “can verir”, Azərbaycan isə müstəqilliyini elan etməyə “hazırlaşırdı”. “Qanlı Yanvar”da axıdılan şəhid qanları xalqın azadlıq məşəlini nəinki söndürmüş, əksinə daha da alovlandırmışdı. Məhz bu təlatümlü dövrdə Ceyhun Padar kənd orta məktəbini qurtarır...

**İyun 1992-ci il.** Müstəqil Azərbaycanın vətəndaşı olan C.Əliyev, Ağsu RHK tərəfindən ordu sıralarına, həqiqi hərbi xidmətə çağırılır.

Xalq yaşadığı bu ağır, qan-qadalı illərdə Ceyhun kimi igidlərinə güvənirdi. Vətənə qorxubilməz mərd oğullar lazım idi. C.Əliyev də digər həmyaşıdları kimi hərbi komissarlığa məhz qəlbindəki Vətən sevgisi, böyük ruh yüksəkliyi və qaniçən düşmənə olan sonsuz nifrət hissi ilə gəlmişdi. Gəlmişdi ki, müqəddəs torpaqlarımızı qorusun, yurd yerlərimizi mənfur erməni faşistlərinin təcavüzündən xilas etsin.

Beləliklə, sıravi C.Əliyev Vətənə olan müqəddəs borcunu Daxili Qoşunların hərbi qulluqçusu kimi ləyaqətlə yerinə yetirməyə başlayır. Onun döyüş yolu Ağdam və Ağdərə rayonlarının müdafiəsindən başlayır. Qoşunların 17074 saylı hərbi hissəsinin əsgəri olan Ceyhun qısa müddət ərzində döyüşçüyə xas olan mərdliyi və iradə möhkəmliyi sayəsində yoldaşlarının hörmət və ehtiramını qazana bilir, onların sevimlisinə çevrilir.

**26 sentyabr 1992-ci il.** Sıravi C.Əliyevin son döyüş günü...

Sentyabrın əvvəllərindən başlayaraq, Ağdam şəhəri və ətraf kəndlər daşnaq qüvvələri tərəfindən daha çox silahlı basqına, güclü raket və top atəşinə məruz qalırdı. “Fərrux” yüksəkliyində möhkəmlənən düşmən, nisbətən aşağıda yerləşən yaşayış məntəqələrimizi və hissələrimizi müntəzəm olaraq atəş altında saxlayırdı.

Ceyhunun vuruşduğu hissənin qarşısına bu strateji məntəqənin düşməndən azad edilməsi tapşırığı qoyulmuşdur. Fərrux yüksəkliyinin azad edilməsi uğrunda aparılan hərbi əməliyyatlar zamanı Vətənin neçə-neçə igid oğlu şəhidlik zirvəsinə yüksəlmişdir. Taleyinə şəhidlik qisməti yazılan belə oğullardan biri də Ceyhun oldu...

Sıravi C.Əliyevin həyat və döyüş yolu barədə Ağsu rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin **www.agsumks.tk** internet saytının “Ağsu şəhidləri” bölməsində qısa məlumat verilmişdir. Saytda Ceyhunun Ağdam bölgəsində, Fərrux yüksəkliyi uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olduğu qeyd olunub.

Daxili Qoşunların sıralarında Ceyhun kimi cəsur hərbi qulluqçularımız bu gün də var. Onlar şəhidlərimizin intiqamını erməni daşnaklarından almağa, torpaqlarımızı azad etməyə hər an hazırdırlar.

**Allah şəhidlərimizə rəhmət eləsin!**

**kapitan A.Əhmədov,**

# “VƏTƏNPƏRVƏRLİYİN TƏBLİĞİNDƏ İCTİMAİ DƏSTƏYİN ARTIRILMASI” LAYİHƏSİ UĞURLA BAŞA ÇATIB

***Sentyabrın 2-də Beynəlxalq Mətbuat Mərkəzində Əsgər Ailələrinə Dəstək İctimai Birliyinin “Vətənpərvərliyin təbliğində ictimai dəstəyin artırılması” adlı layihəsinin yekun tədbiri keçirilib. Tədbirdə ölkədə fəaliyyət göstərən müxtəlif kütləvi informasiya vasitələrinin, o cümlədən bu cür layihələrin həyata keçirilməsində hər zaman yaxından iştirak edən Daxili Qoşunların “Əsgər” qəzetinin nümayəndəsi, şəhid ailələri, qeyri-hökumət təşkilatı rəhbərləri iştirak ediblər.***




Tədbir torpaqlarımızın azadlığı və ərazi bütövlüyü uğrunda canlarından keçərək, şəhidlik zirvəsinə ucalan qəhrəman oğul və qızlarımızın əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Sonra çıxış edən layihə rəhbəri Mətanət Əsgərqızı Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə həyata keçirilən layihənin 3 ay davam etdiyini və uğurla yekunlaşdığını qeyd edib. Bildirib ki, ötən müddət ərzində Qarabağ və Böyük Vətən Müharibəsi əlilləri, veteranları, şəhid ailələrində, ölkənin 2 ali, 6 orta məktəbində, 2 kollecdə, Quba və Mingəçevir şəhərlərində, Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi hissələrində, ümumilikdə, 23 tədbir keçirilib.

Görüşlər zamanı əsasən vətənpərvərliyin təbliğinə geniş yer verilib, tariximiz, şəhidlərimiz, qəhrəmanlarımız haqqında söhbətlər aparılıb, “Difai”, “Cümhuriyyət”, “Adsız qəhrəmanlar”, “Mübariz” filmləri nümayiş etdirilib. Diqqətdə saxlanılan əsas məsələ isə şəhid ailələri ilə bağlı mövcud problemlərin həll edilməsi olub.

Məlumat üçün bildirək ki, tədbirdə Əsgər Ailələrinə Dəstək İctimai Birliyi tərəfindən sözügedən layihənin reallaşmasında hərtərəfli şəraitin yaradılmasına görə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Mətbuat xidməti “Təşəkkürnamə” ilə mükafatlandırılıb.

Qeyd edək ki, layihə çərçivəsində yeniyetmə və gənclərin vətənpərvərlik ruhunun, hərbi qulluqçuların Vətənə, torpağa bağlılıq hisslərinin yüksəldilməsi məqsədilə bir qrup şagird və tələbələrin may ayının 28-də və iyun ayının 18-də Daxili Qoşunların “N” saylı hərbi hissələrilə tanışlığı həyata keçirilib.

**Mətbuat xidməti**

# 18 SENTYABR- MİLLİ MUSİQİ GÜNÜ

***Sentyabrın 18-də Azərbaycan xalqının dahi oğlu, musiqi mədəniyyətimizin korifeyi Üzeyir Hacıbəylinin doğum günüdür. 1995-ci ildə Ümummilli Lider Heydər Əliyevin fərmanı ilə dahi bəstəkarın anadan olmasının 110 illik yubileyi ərəfəsində 18 sentyabrın Milli Musiqi Günü kimi qeyd olunması qərara alınıb.***




Bu tarix sadəcə musiqisevərlərin yox, həm də xalqımızın bayramıdır.

Yaradıcılığına XX əsrin əvvəllərində başlamış Ü.Hacıbəylinin musiqisi və bütövlükdə yaradıcılığı ümumən xalqımızın milli sərvətidir. Artıq bir əsrdən çox vaxt ərzində çalınan, səslənən bu musiqi Azərbaycan xalqının canına, qanına sirayət edərək, onun bədii mədəniyyətinin ayrılmaz tərkib hissəsinə çevrilib.

Ü.Hacıbəyli sənətdə, musiqi mədəniyyətində millilik və beynəlmiləlçilik anlayışını daha qlobal, Qərb və Şərqin, dünya və milli mədəniyyətlərin nailiyyətlərinin üzvü sintezi kimi başa düşür və həll edirdi. Bu gün Azərbaycan musiqisinin beynəlmiləl əhəmiyyət kəsb etməsində onun yaradıcılığının və şəxsiyyətinin böyük rolu var.

Ü.Hacıbəyli dahi bəstəkar, böyük musiqişünas-alim, Azərbaycanın, eləcə də Şərq opera sənətinin banisi olmaqla yanaşı, “Leyli və Məcnun”, “Koroğlu” kimi təkrarsız operaların, “Azərbaycan xalq musiqisinin əsasları” adlı elmi-nəzəri risalənin, “Ər və arvad”, “O olmasın, bu olsun”, “Arşın mal alan” kimi operettaların musiqisinin, həm də bu əsərlərin librettolarının müəllifi, görkəmli dramaturq, alovlu publisist, jurnalist, saysız-hesabsız dəyərli məqalələrin müəllifi, gözəl pedaqoq, Azərbaycan Dövlət Himninin müəllifi olub.

O, Şərq və Qərb musiqi mədəniyyətləri arasında keçilməz səddi aradan götürməyə, Azərbaycan musiqisinin gələcək inkişaf yolunu və estetik prinsiplərini müəyyənləşdirməyə müvəffəq olub. Ü.Hacıbəyli yaradıcılığında Şərqin və Qərbin musiqi ənənələrinin vəhdəti parlaq bədii obrazlarla əks olunmuş, yüksək humanizm idealları, xeyirxahlıq, xalqlar dostluğu tərənnüm edilmişdir.

**Gün o gün olsun ki, Üzeyir Hacıbəylinin doğum günü - 18 sentyabr bəstəkarın yaşayıb-yaratdığı Qarabağ torpağında, musiqimizin beşiyi Şuşada təntənəli şəkildə qeyd edilsin.**